

# AZƏRBAYCANIN İSTİQLAL ŞAİRİ ƏHMƏD CAVAD 120



Dekabrın 17-də Xəzər Universitetinin "Dünya" konsert salonunda Təhsil fakültəsinin təşəbbüsü ilə Azərbaycanın böyük şairi Əhməd Cavadın anadan olmasının 120 illiyinə həsr edilmiş tədbir keçirildi. Tədbiri Azərbaycan dili və ədəbiyyat departamentinin rəhbəri dosent Vurğun Əyyub Əhməd Cavadın həyat və yaradıcılığından bəhs edən məruzə ilə açdıqdan sonra səhnə tələbələrin ixtiyarına verildi. Universitet tələbələrinin hazırladığı ədəbi-bədii kompazisiyada şairin həyatını əks etdirən səhnəciklər oynanılmış, şeirləri oxunmuş, şeirlərinə bəstələnmiş mahnılar səsləndirilmişdir. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Əhməd Cavad yaradıcılığı haqqında düşüncələrini tamaşaçılarla bölüşmüş, tədbiri hazırlayanlara və iştirakçılara təşəkkürünü bildirmişdir. Tamaşa sözlərini Əhməd Cavadın yazmış olduğu Azərbaycan Dövlət Himninin oxunması ilə sona çatmışdır.





